# Asim Yadigarın yaradıcılığında Qarabağ mövzusu, yurd itkisinin ağrısı, şəhidlik

**Ədəbiyyatımızda çox ağrılı və acılı bir mövzu var: Qarabağ mövzusu. Ötən əsrin 80-ci illərinin sonundan başlayaraq bu mövzu hər bir şairi, yazıçını dərindən düşündürmüş, 90-ci ilin yanvarından başlayaraq Qarabağ dərdi, Qarabağ problemi ədəbiyyatımızda aparıcı bir mövzuya çevrilmişdi. Xalq şairimiz Bəxtiyar Vahabzadə "Şənbə gecəsinə gedən yol" adlı kitabında eyni adlı məqaləsində yazırdı: "Qarabağ hadisələri başlanandan indiyə qədər əlimə qələm alanda bütün vücudum lərzəyə gəlir. Qələm içimdəki qəzəbi və etirazı istədiyim şəkildə yazıya çevirə bilmir. Hiddətim və qəzəbim fikrimi dəqiq ifadə etməyə imkan vermir. Çünki xalqıma edilən gözgörəsi zülm o qədər böyük, haqsızlıq o qədər dəhşətlidir ki, bunları insan ağlı dərk edə bilmir".**

Bəxtiyar müəllim bir vətəndaş şair kimi erməni həyasızlığından söhbət açarkən böyük gürcü yazıçısı İlya Çavçavadzenin "Daşların fəryadı" əsərinə də müraciət edir. Şair yazır ki "Bu sözləri elə bil İlya

Çavçavadze bu gün bizim haqqımızda demişdir: "Ermənilər mənliyimizi təhqir etmək, milli ləyaqətimizi tapdalamaqla kifayətlənmir, bizi yer üzündən yerli-dibli silmək üçün bütün tariximizi, salnaməmizi, tarixi yadigarlarımızı, abidələrimizi puça çıxarır, bizə mənsub olan hər şeyi... müxtəlif hiylələrlə özlərinə çıxırlar... Nədən ötrü toz dumanı qaldırılıb, nədən ötrü belə hay-həşir qoparılıb, göy guruldayıb, ildırım çaxıb? Ondan ötrü ki, bütün dünyaya sübut etsinlər: zaqafqaziyada ta qədimdən yalnız erməni xalqı yaşamış və bu diyarın gələcəyi də onlarındı". Azərbaycan ədəbiyyatının onlarla, yüzlərlə tanınmış şair və yazıçısının yaradıcılığında olduğu kimi Asim Yadigarın da şeir və poemalarında bu mövzu özünəməxsus bir yer tutur. Şair hələ 1988-ci ildə "Torpaq davası", "A zalım" , Bələk" şeirlərini qələmə almışdı. Biz "Bələk" şeiri haqqında söhbət açdığımız üçün həmin şeirə yenidən müraciət etməyi məqbul saymırıq. "Torpaq davası" şeiri məhz bu ağrı-acının bədii əks-sədası idi:

**Qurtarmır dünyanın torpaq davası,**
**Yüz ildir, min ildir gedir beləcə.**
**Kök atıb, boy atıb ürəyimizdə**
**Torpaq ağac kimi bitib beləcə.**

Şair torpağı ağrı-acısının məlhəmi bilir və torpağı qorumağı hər bir insanın, hər bir vətəndaşın vətəndaşlıq borcu sayır:

**Ağrıma, acıma məlhəmdir torpaq,**
**Onsuz korun-korun odlanar sinəm.**
**Torpaq torpaq altda qoruyar məni,**
**Onu torpaq üstdə qoruyan mənəm.**

Asim Yadigar bir şair kimi torpaq davasından qorxduğunu deyir. Çünki zaman etibarı ilə torpaq davasında xalqımız həmişə uduzub. Çünki sinəmizə elə bir dağ çəkilib ki, böyük, bütöv Azərbaycanı Araz qılıncı ilə yarı bölüb sinəmizə sağalmaz bir torpaq yarası vurublar:

**Torpaq davasından qorxuram, Allah,**
**Torpaq davasında itirmişəm mən.**

Şair bu sözləri 1988-ci ildə yazıb. Elə həmin dövrdə də haray çəkərək deyirdi:

**Quru kəsək olsun, ya qaya, ya daş,**
**Torpaq daha şirin gözümdə bu gün.**
**Sağıqsa, torpağı qoruyaq, qardaş,**
**Qoruyaq sabahkı nəsillər üçün.**

Əfsus ki, sonrakı illərdə torpaqlarımızı qoruya bilmədik, ərazimizin 20 faizi ermənilər tərəfindən işğal olundu. Bir milyondan artıq soydaşımız ata-baba yurdundan didərgin düşüb qaçqına, köçgünə çevrildi.

Sonrakı dövrdə şair "A zalım" şeirində üzünü torpaq satan şərəfsizlərə tutaraq yazırdı:

**Torpaqdan pay olmaz dedi babalar,**
**Sən onu çox ucuz tutdun, a zalım.**
**Bu Vətən torpağı sümükmü, ətmi?**
**Onu qabaqlara atdın, a zalım,**

90-cı ilin Qara Yanvarı Asim Yadigarın "Yandırır" və "Qara bayraqlar" şeirində öz bədii əksini tapıb. Bir zamanlar al bayraqlar selində yuyunan Azərbaycanın 20 Yanvar günlərində hər kəndində, şəhərində qara bayraqların asılması onu kövrəldir:

**Al bayraqlar üstünə**
**Al qanımız çiləndi.**
**Gecəmiz qana batdı,**
**Gündüzüm kölgələndi.**

Müəllif qara bayraqları qanadı sınmış quşa bənzədir. Dağlarımızı, qayalarımızı, hüznlü, kədərli təsvir edir. Şairin ürəyi qəm yuvasıdır, orda dərd taxta çıxıb, könlü isə qəmə əsir düşüb.

Amma şair sabaha inanır və qəti hökmlə deyir:

**O qara bayraqlara**
**Əl vurmaram ölüncə.**
**Qoy yellənsin qəlbi**
**Ağ günlərim gəlincə.**

1990-cı ilin 20 yanvar gecəsi xalqımızın qan yaddaşına "Qanlı şənbə gecəsi" kimi yazılıb. Şair Məmməd Aslanın dediyi kimi " Yanvarın 20-sinə keçən gecə. Doxsanıncı ilin bu qanlı partlayış nöqtəsi, yəqin ki, dünyanın yaddaşında silahsız və günahsız insanları amansız bir vəhşiliklə qanına qəltan eləyən bu tarixdən fəryad qopacaq..."



Həmin günlərdə Məmməd Aslanın məşhur "Ağla, qərənfil, ağla!" şeiri hamının dilində səslənirdi:

**Qərənfil-şəhid qanı!**
**Qan götürdü dünyanı...**
**Ağla, inlət meydanı,**
**Ağla, qərənfil, ağla!**

20 Yanvar faciəsini ağrı-acısını yaşadığımız zaman şairlərin bu mövzuda yazdığı şeirlər mətbuatda çap olunmağa başladı. Bəxtiyar Vahabzadənin məşhur "Şəhidlər" poeması mətbuatda işıq üzü gördü. Naxçıvanda yaşayıb-yaradan şairlərimiz də bu mövzuda şeirlər, poemalar yazdılar.

Həmin dövrdə yaranan şeirlərdən biri də Asim Yadigarın şəhidlərə həsr olunmuş "Yandırır" adlı şeiri idi. Bu şeir şəhidlərin qırxı ərəfəsində "Şərq qapısı" qəzetində dərc olundu:

**Bu qədər dərd olmaz çəkirik , Allah,**
**Dərdimiz torpağı, daşı yandırır.**
**Elə od qoyublar ürəyimizə,**
**Qurumuz bir yana, yaşı yandırır.**

Şairin sabaha olan ümidi var. O, inanır ki, yerin, göyün götürmədiyi bu nahaq qan yerdə qalmayacaq, xalq nə vaxtsa ayağa qalxıb şəhidlərin Azadlıq arzusunu gerçəkləşdirəcəkdir:

**Nə yer götürəcək, nə göy bu qanı,**
**Qanlı kəfən kimi gəl, gey bu qanı.**
**Səməndər quşutək Azərbaycanı**
**Salıb nahaq oda naşı, yandırır.**

Şairin belə ağrılı əsərlərindən biri də 1992-ci ilin iyul ayında yazdığı "Oynama, bala, oynama" şeiridir. Şeirin özündə bir ağrı var. Şair şeirin əvvəlində yazır ki, 1992-ci ilin yayında Xocalı qaçqınlarının uşaqları "Günəşli" sanatoriyasında axşamlar istirahət edənlərə qoşulub oynayırdılar. Bu şeir həmin acı təəssüratdan yarandı:

**Yaralı köksündə dərd qurub yuva,**
**Nə tez yaddaşından çıxdı bu dava.**
**Nə tez sümüyünə düşdü bu hava,**
**Barı sən oynama, oynama bala.**

Ağrıların, acıların, bu qanlı oyunu oynayanların kənarda qalması şairi narahat edir. Bu oyunu oynayanlarla dünyadan xəbərsiz meydana düşüb oynayan 2-3 yaşlı uşaqların oyunları ürək parçalayan bir ağrıya çevrilir:

**Oyun oynayanlar qıraqda qaldı,**
**Qaynar qazanınız ocaqda qaldı.**
**Bir dünya gülüşün dodaqda qaldı,**
**Barı sən oynama, oynama, bala.**

Körpə uşaqlara "oynama, bala, oynama" deyən şair inanır ki, düşməndən qisas alınacaq və onda bu uşaqların ürəkdən deyib-gülməyə, oynamağa mənəvi haqları çatacaqdır. O gün isə hələ qabaqdadır:

**Qisas var -düşməndən alınmayıbdı,**
**Canına vəlvələ salınmayıbdı.**
**Azadlıq havamız çalınmayıbdı,**
**Hələ sən oynama, oynama, bala.**

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı, bu dövdən başlayaraq orduda nizam-intizamın yaradılması, güclü ordu formalaşdırılması Qarabağ bölgəsində vuruşan döyüşçülərin də əhval-ruhiyyəsinə güclü təsir göstərdi. Bu baxımdan şairlərin də yaradıcılığında mübariz ruhlu şeirlərə rast gəlindi. 1993-cü ildən sonra Asim Yadigarın mübariz, döyüş əhval-ruhiyyəli şeirləri mətbuat səhifəsində görünməyə başladı.Akademik İsa Həbibbəyli şairin yaradıcılığı haqqında yazdığı məqaləsində onun yaradıcılığındakı bu şeirlər haqqında da geniş söz açmışdı: "Asim Yadigar müasir Azərbaycan şeirində dövlət müstəqilliyi ideyalarını ardıcıl olaraq ifadə edən şairlərdən biridir. Müstəqil dövlət quruculuğunun başlanğıc illərində yazdığı "Səni döyüşə göndərirəm, səsim" şeiri özünün orijinallığı ilə tam fərqli bir poetik nümunədir. Asim Yadigar ölkənin bütün potensialının, o cümlədən şairin səsinin də müstəqillik yollarında mərd əsgər kimi iştirak etməsini ilk dəfə olaraq şeirdə səsləndirir:

**Görünsün sinəndə güllə yerləri,**
**Qanın axa-axa cəbhələri yar.**
**Səni qorxutmasın güllələr, yeri,**
**Vurulsan, yaranı sarıyan olar,**
**Səni göndərirəm döyüşə, səsim.**

Bundan başqa, Azərbaycan poeziyasında səngərdə əsgər, döyüş anları haqqında çox yazılıbsa da, xüsusi olaraq səngərə həsr edilmiş poetik nümunələrə az rast gəlmək olar. Asim Yadigarın "Səngərim" şeiri bu mövzuda yazılmış təsirli poetik nümunələrdən biridir. Onun səngərdə əsgəri Vətən torpağında bitən çinara bənzətməsi yenidir, mənalıdır və yaddaqalandır. Şairin "Bir ola bilmirik" şeiri də milli birlik ideyasının möhkəmlənməsinə xidmət edən müdrik poeziya nümunəsidir. "Torpaq davası" şeirindəki "Torpaq, torpaq altda qoruyar məni, onu torpaq üstdə qoruyan mənəm"-misraları şairin məlum mövzuya diqqəti çəkən qiymətli əlavələridir. "Hücum əmri ver mənə" şeiri 1993-cü ildə yazılmasına baxmayaraq, bu gün də, torpaqlarımızın azad edil-məsi, müstəqilliyimizin daha da möhkəmləndirilməsi uğrunda mübarizə davam etdikcə aktuallığını qoruyub saxlayacaq şeirlərdəndir".

1993-cü ilin noyabr ayında Azərbaycan ordusu Füzuli, Goranboy istiqamətində çox uğurlu əməliyyatlar apardı. Həmin dövrdə ümummilli liderimiz Heydər Əliyev döyüş bölgələrində oldu. Orduda yaranan döyüş əhval-ruhiyyəsi Asim Yadigarın "Hücum əmri ver mənə..." şeirinin yaranmasına səbəb oldu:

**Hücum əmri ver mənə, hücum əmri, komandir,**
**Keçilməz sədlər keçim, aşılmaz dağlar aşım.**
**Döyüş meydanlarında quduzlaşan yağıyla**
**Şir kimi pəncələşim, pələng kimi savaşım.**
**Müdafiə ölümdür, de, geri qaçmaq nədir?**
**Hücum əmri ver mənə, hücum əmri, komandir!**

**(ardı növbəti sayımızda)**

**Günay Şirəliyeva**
**Naxçıvan Müəllimlər İnstitutunun müəllimi,**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**